*Afiqə CƏFƏROVA*
***Bakı Dövlət Universiteti nəşriyyatının əməkdaşı***

# MÜQƏDDƏSDİR ALİMLƏRİMİZ

*Müqəddəs insandır alim olanlar*
*Ən uca zirvəyə layiqdir onlar*
*Günəş tək dünyaya işıq salanlar,*
*Dahilərimizdir alimlərimiz.*

Professor Abuzər Alı oğlu Xələfov Bakı Dövlət Universiteti kitabxanaçılıq fakültəsinin ilk yaradıcı alimidir. Görkəmli alimin 70 illik yubileyinin qeyd edilməsiylə bağlı fakültədə hazırlanan jurnal materialının redaktəsi mənə həvalə edilib. Oradakı təəssüratları oxuduqca, qəlbim fərəhlə doldu. Axı, professor Abuzər Xələfov mənim də müəllimim olmuşdur. Onun kitabxanaşünaslığın sirlərini öyrətdiyi tələbələrindən biri də mən olmuşam.

Yuxarıda qələmə aldığım kiçik şer parçası da məhz müəllimə məhəbbətdən, sayğıdan irəli gəlmişdi. Fikirləşdim ki, 1972-1973-cü illərdə müəllimim olmuş bu yaxşı insan, böyük şəxsiyyət və görkəmli alim haqqında hər bir tələbəsi kimi, mən də öz ürək sözlərimi deməyə borcluyam. Çünki professor A.Xələfov buna layiq insandır. Onun üçün də alimin şəxsiyyətinə, böyüklüyünə olan hörmət və ehtiramımı mərhum türkoloq alim və şair Cəfər İsmayıl oğlu Cəfərovun xalq şairi Səməd Vurğunun «50 illik» yubileyinə həsr etdiyi «Səni» şerinin bir hissəsindən istifadə edib şerdə bəzi dəyişikliklər edərək onu təbrik edir, «doğum gününüz mübarək» deyir və uğurlar arzulayıram!

*Müəllim, salamlayır «70» yaşında,*
*Çiçəkli çəmənlər, al güllər Səni.*
*Sevir ürək kimi, sevir can kimi,*
*Dilinin əzbəri tələbələr Səni.*



*Demə ağartmışam qara saçları,*
*Şiş uclu dağların olmazmı qarı?!*
*Sən ey universitetin fəxri, vüqarı,*
*Cavan yaşadacaq könüllər Səni.*

*Söylə, qocalarmı əsl sənətkar,*
*Ruhunu, eşqini eldən alanlar?*
*Hələ çox baharın, çox bayramın var,*
*Qocaltmaz bu hünər, bu vüqar Səni.*